# YÜKSƏK İXTİSAS VƏ PEŞƏLƏRƏ SƏRİŞTƏLİ YİYƏLƏNMƏK GÜNÜN TƏLƏBİDİR

Müasirləşdirmə, ilk növbədə qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. Eyni zamanda ölkənin sürətli inkişaf və tərəqqisinin tələbi olaraq yüksək ixtisaslı kadrların, bacarıqlı və qabiliyyətli mütəxəssislərin, peşə sahiblərinin hazırlanması zəruridir. Azərbaycan Respublikası Təhsil Nazirliyi Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan ilk peşə-ixtisas təhsili müəssisəsi olan Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə



Təhsil Mərkəzinin amalı məhz bu məsələlərin həllinə töhfə verməkdən ibarətdir.

Bu mərkəzə uzun müddət rəhbərlik edən **Şahin Məhərrəmovdan** yeni idarəetmə sistemine üyğun mərkəzdə təlimin modernləşməsi haqqında məlumat verməyini xahiş etdik. O qeyd etdi ki, son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ-hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Həmin məqsədlə müxtəlif şəhər və rayonlarda müasir, dünya standartlarına uyğun məktəb binaları tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir-bərpa işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Azərbaycan təhsil sisteminin strukturunda peşə-ixtisas təhsili xüsusi yer tutur. İlkin peşə-ixtisas təhsilinin həm kəmiyyət və həm də keyfiyyət baxımından sürətli inkişafı, ictimaiyyət arasında nüfuzunun artması ulu öndər Heydər Əliyevin ölkəyə birinci dəfə rəhbərlik etdiyi dövrdən başlamışdır. 1970-ci ildə respublikada 76 ilkin peşə-ixtisas məktəbi fəaliyyət göstərir və onlarda 40,9 min şagird təhsil alırdısa, 1982-ci ildə bu rəqəmlər müvafiq olaraq 182-yə və 109,0 min nəfərə çatdırılmışdır. 1988-1993-cü illərdə respublikada yaranmış mürəkkəb iqtisadi-siyasi şərait bütün sahələrdə olduğu kimi ilkin peşə təhsilinin inkişafına da öz mənfi təsirini göstərdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin səyləri nəticəsində ölkədə ilkin peşə təhsili sahəsinə diqqət artmış, onun inkişafı üçün bir sıra qərarlar qəbul edilmiş, ilkin peşə məktəblərinə peşə liseyi və peşə məktəbləri statusu verilmişdir. Eyni zamanda 2003-cü ildən etibarən ölkəmizdə peşə təhsilinin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi sahəsində də müəyyən işlərin görülməsinə başlanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında ilkin peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramının (2007-2012-ci illər)" təsdiq edilməsi haqqında 3 iyul 2007-ci ildə imzaladığı sərəncam ölkəmizdə ictimaiyyətin böyük marağına səbəb olmuşdur. Proqramda dinamik inkişaf edən iqtisadiyyatımızın ilkin peşə-ixtisas kadrlarına olan tələbatının daha çevik ödənilməsini və əhalinin müasir ilkin peşə təhsili almaq imkanının günün tələbləri səviyyəsində qurulmasını nəzərdə tutmuşdur. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır, insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi — Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ilk peşə-ixtisas təhsili müəssisəsidir. Mərkəz Nazirlər Kabinetinin 11 oktyabr 2016-cı il tarixli, 405 nömrəli Qərarı birləşdirilmiş 1 nömrəli Gəncə Peşə Liseyi, 2 nömrəli Gəncə Peşə Liseyi və 3 nömrəli Gəncə Peşə Məktəbinin bazasında yaradılmışdır. Təhsil Mərkəzinə daxil olan binaların texniki bazası gücləndirilmiş, müasir tədris korpusları yaradılmış, şagird yataqxanası təmir olunmuş, istehsalat təlimi emalatxanaları və xüsusi fənn kabinetləri avadanlıqla təchiz olunmuşdur.

Hazırda mərkəzin tabeliyində Gəncə şəhəri, 3-cü mikrorayonda yerləşən 1-ci korpusda - 2 nömrəli Gəncə Peşə Liseyi üzrə dövlət vəsaiti hesabına - 300 nəfər təhsil alır ki, onlardan 140 nəfər - 3 illik, 40 nəfər - 2 illik, 120 nəfər - 1 illikdir. Liseydə telekommunikasiyada




kompüter texnikasının istismarı üzrə operator, kompüter operatoru, elektrik maşınlarının təmiri üzrə çilingər, elektrik qaz qaynaqçısı, əl elektrik qaynaqçısı, tornaçı, geniş profilli dəzgahçı, təmirçi-çilingər, avtomobil üzrə elektrik, kimyəvi-bakterioloji analiz laborantı, dağ-mədən işləri üzrə mütəxəssis, məişət soyuducu və istilik sistemlərinə xidmət üzrə mütəxəssis kimi hazırlanır.

S.Ruhulla küç. 3-də yerləşən 2-ci korpusda - 1 nömrəli Gəncə Peşə Liseyində - dövlət vəsaiti hesabına 300 nəfər təhsil alır. Onlardan 100 nəfər - 3 illik, 60 nəfər - 2 illik, 140 nəfər - 1 illik təhsil müddətindədir. Burada uçan aparatların cihaz




avadanlıqları üzrə elektromexanik, rabitə quraşdırıcısı-antenaçı, elektrik qaz qaynaqçısı, elektrovoz maşinisti köməkçisi, vaqon baxıcısı-təmirçisi, avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü, kompüter üzrə operator, dizayner, xarrat-dülgər və parket ustası, mənzil təsərrüfatı xidməti üzrə mütəxəssislər hazırlanır.

3-cü korpusda Ə.Məmmədov küç. 14-də yerləşən 3 nömrəli Gəncə Peşə Məktəbində - 160 nəfər dövlət vəsaiti hesabına təhsil alır. Onlardan 40 nəfər - 2 illik, 120 nəfər - 1 illik təhsil alacaqlar. Əməliyyatçı-mühasib, telekommunikasiyada kompüter texnikasının istismarı üzrə operator, rabitə quraşdırıcısı-antenaçı, dərzi, kompüter operatoru ixtisası üzrə tədris olunur. Təhsil ocağında ümumilikdə 760 nəfər tələbə üçün maksimum şərait yaradılmışdır. Əsaslı təmir nəticəsində bina müasir və günün tələblərinə cavab verən səviyyəyə gətirilərək yataqxana tam təmir edilib. Yeni tipli mini stadion inşa edilərək şagirdlərin istifadəsinə verilib. Mərkəzin həyətində idman alətləri, tennis və müxtəlif idman stolları quraşdırılıb. 400 kv.m məktəbyanı sahə, 100 yerlik yeməkxana, oxu zalı olan kitabxana, akt zalı yenidən təmir edilib. Ən müasir standartlara uyğun idman zalı şagirdlərin ixtiyarındadır. İdmandan sonra ayrıca yuyunma otağı, istirahət guşəsi mövcuddur. Yüksək səviyyədə təchiz olunmuş emalatxanalar da şagirdlərin mükəmməl təhsilə və peşəyə səriştəli yiyələnməsinə stimul verir.

Binanın ətrafında yaşıllaşdırma işləri aparılıb, 150-dən çox ağac və bəzək kolları əkilmişdir.

Bu il mayın 24-də Gəncədə Avropa İttifaqı (Aİ) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycanda peşə təhsili və təlimi mərkəzlərinin müasirləşdirilməsi. 2017-2020" layihəsi çərçivəsində Gəncə regional komponenti üzrə "Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Mərkəzinin yaradılmasına dəstək" layihəsinin açılış mərasimi keçirildi. Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Təhsilə dəstək proqramı"nın tərkib hissəsidir. Layihənin məqsədi Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Mərkəzinin yaradılmasına dəstək göstərmək və peşə təhsilinin keyfiyyətini artırmaqdır. Layihəyə əsasən Mərkəz "Azer-Gold" QSC, "Gilan Holdinq", "Det-Al Alüminium", "Gəncə Əlvan Metal emalı" ASC, Gəncə Avtomobil Zavodu kimi nəhəng şirkətlərlə yaxından əməkdaşlıq edəcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**